# Fəxrəddin ƏSƏD-70



Hörmətli Fəxrəddin müəllimi 70 illik yubileyi münasibətilə təbrik edirik.

Fəxrəddin Əsəd (Fəxrəddin Əsəd oğlu Əsədov) 1954-cü ildə Ağdaş şəhərində anadan olub. Orta təhsilini Ağdaş şəhər Müşfiq İsayev adına məktəbdə alıb. Ümumittifaq Maliyyə-İqtisad İnstitutunda, Bakı Slavyan Universitetində təhsilini davam etdirib.

Hələ orta məktəb illərində yerli rayon qəzetində ("Əmək") şeirlərilə, miniatür yazılarla çıxış edib. Mərkəzi mətbuatda ilk şeiri "Azərbaycan gəncləri" qəzetində (1973) dərc olunub. O vaxtdan müntəzəm olaraq şeirləri respublikanın ədəbi nəşrlərində ("Azərbaycan", "Ulduz", "Qobustan" jurnalları, "Ədəbiyyat qəzeti"), o cümlədən bir neçə xarici ölkə nəşrlərində çıxıb.

İlk şeirlər kitabı - "Göyərçin lələyi" 2004-cü ildə nəşr olunub. Latış şairi, Mauthauzen ölüm düşərgəsinin məhbusu Eyjen Veverisin şeirlər kitabını (rus dilindən) tərcümə edib. Şeirləri hissə-hissə "Palitra" qəzeti, "Mütərcim" jurnalında dərc edilib və "Lənətlənmiş torpağın qızılgülləri" adı ilə kitab şəklində çap olunub. "Payızda açılan qapı" kitabı "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb.

Fəxrəddin Əsəd Azərbaycan Yazıçılar Birliyi Ağdaş bölməsinin sədridir.

Fəxrəddin müəllimi yubileyi münasibətilə bir daha təbrik edir, ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**